# "Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri"

Dekabrın 16-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində bəstəkar Rəşid Şəfəqin tərtib etdiyi "Abdulla Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri" kitabının təqdimat mərasimi keçiriləcək. Kitab Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr edilib. Abdulla Şaiqin 130 illik yubiley tədbirləri silsiləsindən olan bu mərasimdə tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak edəcəklər.

Tədbirin keçirilməsində məqsəd Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Abdulla Şaiqi bir daha yad etmək, yaradıcılığını təbliğ etməkdir.